# Fransa mətbuatı Müqavimət Hərəkatı zamanı azərbaycanlı əsgərlərin rəşadətindən yazıb

**Fransa Müqavimət Hərəkatında iştirak etmiş azərbaycanlı partizanlar İkinci Dünya müharibəsi dövründə faşizmə qarşı mübarizədə mühüm rol oynamış qəhrəmanlar sırasındadırlar. Nasistlər tərəfindən əsir götürüldükdən sonra Fransaya aparılmış azərbaycanlı əsgərlər Fransa Müqavimət Hərəkatına qoşularaq, azadlıq uğrunda savaşan partizanlar kimi tarixə düşüblər.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayevanın və səfirliyin bir neçə diplomatının faşizm üzərində qələbənin 80 illiyi ilə əlaqədar azərbaycanlı əsgərlərin xatirəsini yad etmək üçün Fransanın Aveyron departamentinin Rodez şəhərinə səfərləri yerli mətbuatda geniş işıqlandırılıb, səfərlə bağlı bir neçə məqalə dərc olunub. Qeyd olunub ki, səfər zamanı azərbaycanlı əs-



Accueillie par le Souvenir Français de l'Aveyron

L'ambassadrice d'Azerbaïdjan en visite à Rodez

Samedi 17 mai, Leyla Abdullayeva, ambassadrice d'Azerbaïdjan pour la France, était en visite à Rodez, accompagnée du conseiller militaire et d'autres conseillers de l'ambassade d'Azerbaïdjan à Paris.

La semaine prochaine dans le Petit Journal, tous les détails de cette journée commémorative dédiée à la mémoire des soldats azerbaïdjanais ayant rejoint les maquis aveyronnais. …

Au carré militaire des Résistants, l'ambassadrice a rendu hommage aux soldats azerbaïdjanais, en présence du Souvenir Français de l'Aveyron.

gər Mişel Hüseynovun məzarı ziyarət edilib. Məqalələrdə "Souvenir français" təşkilatının Rodez şəhəri üzrə komitəsinin prezidenti, Aveyron departamentindəki müqavimət hərəkatı ilə bağlı kitabların müəllifi, tarixçi Vənsan Bezombun partizan hərəkatı, azərbaycanlı əsgərlərin şücaəti haqqında tədqiqatları haqqında məlumatlar yer alıb.

Fransanın azadlığı uğrunda canlarından keçmiş azərbaycanlı əsgərlər xatırlanıb, 1943-cü ildə Aveyron departamentinə faşistlər tərəfindən əsir götürülmüş azərbaycanlı əsgərlərin Bürlup kazarmasına yerləşdirildiyi vurğulanıb. Bildirilib ki, əsir götürülmüş azərbaycanlılar gizli yollarla fransız partizanlara qoşulublar. Ancaq onların Fransa Müqavimət Hərəkatına qoşulmasından xəbər tutan faşistlər Bürlup kazarmasında qalan azərbaycanlı əsgərləri güllələyiblər. Buna baxmayaraq, bəzi əsgərlər partizanlara qoşulmağa nail olublar və Fransanın azadlığı uğrunda mübarizə aparıblar.

Azərbaycan.- 2025.- 1 iyun (№ 113).- S.8.